# Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün ümumi xarakterli situasiya mühakimə bacarıqların yoxlanılması üzrə PROQRAM

**Situasiya mühakimə testi (SMT)** işlə əlaqədar situasiyalarda şəxsin müvafiq davranışı müəyyən etmə qabiliyyətini yoxlayır. Bu testə daxil olan tapşırıqlarda namizədə real, hipotetik ssenarilər təqdim edilir və vəziyyətlə əlaqədar ən səmərəli və ya ən səmərəsiz variantı seçməsi, yaxud verilmiş cavab variantlarının səmərəlilik dərəcəsini müəyyən etməsi tələb olunur.

Situasiya mühakimə bacarıqları dövlət qulluğu vəzifələrinin qrupları üzrə aşağıdakı qaydada yoxlanılır:

- AB vəzifə qrupuna aid inzibati rəhbər vəzifələr üzrə test imtahanında dövlət qulluqçularının rəhbər vəzifələrin icrası üzrə situasiya mühakimə bacarıqları (15 test tapşırığı) yoxlanılır;
- AC vəzifə qrupuna aid inzibati rəhbər vəzifələr üzrə test imtahanında dövlət qulluqçularının situasiya mühakimə bacarıqları (15 test tapşırığı, o cümlədən rəhbər vəzifələrin icrası üzrə 7, ümumi xarakterli 8 test tapşırığı) yoxlanılır;
- BA və BB vəzifə qruplarına aid inzibati icraçı vəzifələr üzrə test imtahanlarında dövlət qulluqçularının ümumi xarakterli situasiya mühakimə bacarıqları (15 test tapşırığı) yoxlanılır.